30 OKTYABR
1 NOYABR 2025
BAKI EKSPO MƏRKƏZİ

www.medinex.az



27-ci Azərbaycan Beynəlxalq

# TİBB İNNOVASİYALARI SƏRGİSİ

# SƏRGİ ÜZRƏ HESABAT

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Sərgi haqqında | 2 |
| Rəsmi açılış mərasimi | 3 |
| VİP qonaqların rəyləri | 4 |
| Sərgi iştirakçılarının rəyləri | 5 |
| Sərgi iştirakçıları haqqında | 6 |
| Səhər kokteyli və B2B görüşləri | 7 |
| Ziyarətçilərin rəyləri | 8 |
| Tədbir proqramı | 9 |
| Mükafatlandırma mərasimi | 10 |
| Dəstək və tərəfdaşlar | 11 |
| Medinex 2026 | 12 |







**MEDINEX** – Azərbaycanda tibb və səhiyyə sahələrini əhatə edən və mühüm tədbirlərdən biridir, həmçinin istehsalçılar, distributorlar va sahə mütəxəsislərinin görüş yeridir.







# RƏSMİ AÇILIŞ MƏRASİMİ

AÇILIŞ MƏRASİMİ MEDİNEX 2025 ÜÇÜN MÜSBƏT AB-HAVA YARADARAQ, SAHƏ NÜMAYƏNDƏLƏRİNİN VƏ NÜFUZLU QONAQLARIN SALAMLAMA ÇIXIŞLARI İLƏ YADDA QALMIŞDIR. SESSİYA ÇƏRÇİVƏSİNDƏ MEDİNEX-İN REGİONUN SƏHİYYƏ VƏ TİBB SEKTORUNUN İNKİŞAFINDAKI ƏHƏMİYYƏTİ XÜSUSİ OLARAQ VURĞULANMIŞDIR.



# VİP QONAQLARIN RƏYLƏRİ



Bu sərgidə ölkəmizin səhiyyə sahəsində çalışan yüksəkixtisaslı mütəxəssisləri iştirak edirlər. Tədbir həm peşəkarlar, həm də ümumilikdə səhiyyə sistemimiz üçün son dərəcə faydalıdır.

**Əhliman Əmiraslanov**
Milli Məclisin Səhiyyə komitəsinin sədri



Bu tədbir səhiyyə sahəsində ən son nailiyyətləri və innovativ həlləri təqdim etmək üçün əhəmiyyətli platformadır. Agentlik olaraq sərgidə icbari tibbi sığorta sisteminin üstünlükləri, Xidmətlər Zərfi ilə təminata alınan tibbi xidmətlər və yeni layihələrimiz haqqında məlumat veririk. Eyni zamanda, səhiyyə mütəxəssisləri və tərəfdaşlarla əməkdaşlıq imkanlarını genişləndiririk. "Medinex" sərgisi həm dövlət, həm də özəl səhiyyə müəssisələri ilə əməkdaşlığı gücləndirmək, yeni texnologiyaları və ən yaxşı təcrübələri öyrənmək baxımından böyük fürsətlər yaradır. Bu tədbirdə iştirakımızla vətəndaşlarımızın sağlamlığını qorumaq və tibbi xidmətləri əlçatan etmək üçün daha bir addım atmış oluruq.

**Zaur Əliyev**
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin
İdarə Heyətinin sədri



Səhiyyə Nazirliyi olaraq hesab edirik ki, Medinex sərgisi səhiyyə mütəxəssislərinin yeniliklərlə tanışlığı, mövcud tərəfdaşlıqların inkişafı, yeni əməkdaşlıqların qurulması baxımından mühüm platformadır və bu tədbir milli səhiyyə sisteminin innovativ inkişafına töhfə verir.

**Rasim İsmayılov**
Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini



Bu gün müasir texnologiyaların tətbiqi tibb sahəsində daha çevik, səmərəli və şəffaf idarəetməyə, həmçinin pasiyent məmnuniyyətinin yüksəlməsinə səbəb olur. "Medinex" sərgisi məhz bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Burada səhiyyə mütəxəssisləri, avadanlıq, tibbi sərf və ləvazimat istehsalçıları, eləcə də investorlar bir araya gələrək bilik və təcrübə mübadiləsi aparır, yeni əməkdaşlıq imkanları formalaşdırırlar. Bu sərgi həm də ölkəmizdə tibbi texnologiyaların inkişafına, beynəlxalq tərəfdaşlıqların güclənməsinə və səhiyyə sahəsində ən son yeniliklərin tətbiqinə təkan verir.

**Vüqar Qurbanov**
TƏBİB-in İcraçı direktoru

# SƏRGİ İŞTİRAKÇILARININ RƏYLƏRİ



Əminəm ki, sərgi imkanlarımızı və biliklərimizi daha da genişləndirəcək, tərəfdaşlıq əlaqələrimizin sayını artıracaq.

**Pərvin Salahova**
Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin şöbə müdiri



Sərgi ilə bağlı gözləntilərimiz tam şəkildə özünü doğrultdu. Uğurlu nəticələr arasında mövcud tərəfdaşlarla görüşlər, qarşılıqlı faydalı yeni əlaqələrin qurulması və sahə üzrə mütəxəssislərlə daha sıx təmasların yaradılması yer alır. Bu kimi tədbirlərdə iştirak bizim üçün böyük əhəmiyyət daşıyır. Sərgi biznesin inkişafına son dərəcə müsbət təsir göstərir, istehsalçılar və istehlakçılar arasında birbaşa əlaqə yaradır. "Medinex" sərgisinin geniş biznes proqramı və burada təşkil olunan B2B görüşlər şirkətimiz və məhsullarımız haqqında çox əlverişli təəssürat formalaşdırır.

**Anastasiya Komissarova**
"UzGerMed Pharm" şirkətinin ixrac şöbəsinin rəhbəri



Biz beynəlxalq sərgidə ilk dəfə iştirak edirik və sərginin gedişindən olduqca məmnunuq. Sərgi bütün gözləntilərimizi üstələdi. Ziyarətçilərin məhsullarımıza maraq göstərməsi bizi xüsusilə sevindirdi. Onlar stendimizdəki ekspozisiya ilə diqqətlə tanış olur, çoxsaylı suallar verir və bizim şərh və tövsiyələrimizi maraqla dinləyirdilər. Beləliklə, artıq ilk gündən Medinex sərgi brendinin effekti və faydası öz ən yüksək səviyyədə nümayiş olundu.

**Sevda Həsənağayeva**
"ASCENT" şirkətinin satış meneceri



Sərgi platformamızın nə qədər böyük tələbat gördüyünü göstərdi — ziyarətçi axını gözləntilərimizi üstələdi. Dünyanın müxtəlif ölkələrindən olan mütəxəssislərin məhsullarımıza və texnologiyalarımıza maraq göstərməsi bizi sevindirir. Hər dəfə sərgidə iştirakımız təcrübə mübadiləsi aparmaq, nailiyyətlərimizi təqdim etmək və həmkarlarımıza yeni həlləri tanıtmaq üçün unikal imkan yaradır.
Sərgi öz miqyası və peşəkar təşkilatçılığı ilə təsir bağışlayır. Buradakı atmosfera dinamik və ilhamvericidir. Biz dünyanın müxtəlif ölkələrindən olan həmkarlar və tərəfdaşlarla görüşür, əməkdaşlıq üçün yeni imkanlar açırıq. Hər gün maraqlı görüşlər, təqdimatlar və innovativ həllərin müzakirələri ilə zəngindir. Burada farmasevtika sənayesinin əsl ruhu hiss olunur və biz bu tədbirin bir hissəsi olmaqdan qürur duyuruq.

**Amr İbrahim**
"Egaz Pharma" şirkətinin sədri (Misir)



Maraq çox yüksəkdir — təxminən 300-dən çox həkim stendimizi ziyarət edib, avadanlıqlarımız və texnologiyalarımızla tanış olub. Sərgi həm paytaxt, həm də bölgələrdən gələn həkimlər üçün böyük fürsətdir. Onlar Bakıya hər zaman gələ bilmir və bütün şirkətləri gəzməyə vaxtları yoxdur, amma bu sərgi sayəsində avadanlıqlarımızı birbaşa görə və sınaya bilirlər. Təşəkkür edirik sərginin təşkilatçılarına — onlar bizə bu şəraiti yaratdılar ki, həkimlər və yeni klinika açmaq istəyən sahibkarlar cihazlarımızla yaxından tanış olsunlar.
Bir çox sahibkar sərgidən sonra yeni klinikaların tam təchizatı üçün bizimlə görüşlər təyin edib. Biz "açar təhvil" prinsipi ilə işləyirik: klinikanı sıfırdan qurur, bütün avadanlıqları quraşdırır, lisenziya və səhiyyə standartlarına uyğun şəkildə sahibkarlara təqdim edirik. Bu sərgi bizim üçün həm təqdimat, həm də gələcəyin tibbi imkanlarını birgə nümayiş etdirmək üçün əvəzolunmaz bir platformadır.

**Məhəmməd Məmmədov**
MESA Group şirkətinin icraçı direktoru



Bu sərgidə ilk dəfə iştirak edirik və bu, həmçinin mənim Bakıya ilk səfərimdir. Hesab edirəm ki, tədbirin təşkilatçılığı çox yüksək səviyyədədir. Hər bir sessiya olduqca məzmunlu keçir, dövlət qurumlarının yüksək vəzifəli nümayəndələri və aparıcı mütəxəssislər iştirak edirlər. Sərgi açıldıqdan cəmi iki-üç saat sonra artıq kifayət qədər çox insan gəlmişdi. Düşünürəm ki, bu, biznesimizi genişləndirmək və xüsusilə MDB regionunun bazarına daxil olmaq üçün əla imkandır. Buraya gəlmək şirkətimiz üçün doğru qərar oldu.

**Kristofer Li**
Satış meneceri, PINE BM (Cənubi Koreya)



Bu sərgidə ilk dəfə iştirak edirik və nəticələrdən çox məmnunuq. Hətta deyə bilərəm ki, əldə etdiyimiz nəticələr gözləntilərimizi dəfələrlə üstələdi. Son vaxtlar Qazaxıstan, Özbəkistan və bir sıra digər ölkələrdə keçirilən tibb sərgilərində iştirak etmişik, lakin məhsullarımıza göstərilən bu qədər böyük diqqət və marağı məhz burada — Bakıda gördük. Sərginin təşkilatçılarına ayrıca təşəkkürümü bildirmək istəyirəm. Bundan əlavə, dövlət qurumları və özəl sektor nümayəndələri ilə nəzərdə tutulan bütün görüşlər dəqiq və yüksək səviyyədə təşkil edilmişdi. Düşünürəm ki, sərginin nəticələrinə əsasən Azərbaycanla əməkdaşlıq perspektivlərimiz əhəmiyyətli dərəcədə genişlənəcək. Növbəti dəfə də mütləq Medinex sərgisini ziyarət edəcəyik!

**Tetiana Kuznetsova**
"Olimp Labs" şirkətinin Şərqi Avropa ölkələri üzrə Biznesin İnkişafı meneceri

# SƏRGİ İŞTİRAKÇILARI HAQQINDA

**53**
SƏRGİ İŞTİRAKÇILARI

**12**
ÖLKƏLƏRİN SAYI

**3893**
ZİYARƏTÇİLƏR

## İŞTİRAK EDƏN ÖLKƏLƏR:

- AZƏRBAYCAN
- BELARUS
- CƏNUBİ KOREYA
- ÇİN
- MİSİR
- OMAN
- ÖZBƏKİSTAN
- POLŞA
- QAZAXISTAN
- RUSİYA
- TÜRKİYƏ

## MEDİA MONİTORİNQ

**59**
XƏBƏR PORTALINDA
**369** XƏBƏR

**9**
QƏZET VƏ JURNALDA
**15** MƏQALƏ

**6**
TV KANALDA
**14** SÜJET

# SƏHƏR KOKTEYLİ VƏ B2B GÖRÜŞLƏRİ



Zeytun Pharmaceuticals şirkətinin sponsorluğu ilə təşkil olunan Səhər Kokteyli sərgi iştirakçılarını, tərəfdaşları və dəvət olunmuş qonaqları bir araya gətirərək səmərəli görüşlərin keçirilməsi üçün əlverişli platforma yaratmışdır. Tədbirin ab-havası məhsuldar görüş və müzakirələrin aparılmasına şərait yaratmış, planlaşdırılmış B2B görüşləri isə işgüzar əlaqələrin qurulmasına və yeni tərəfdaşlıq imkanlarının formalaşdırılmasına mühüm töhfə vermişdir.







# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ



Medinex sərgisində ilk dəfədir iştirak edirəm və bu imkan məni çox həyəcanlandırır. Bu sərgi mənə bir çox istehsalçılarla tanış olmaq və təcrübə mübadiləsi aparmaq imkanı yaratdı. Əminəm ki, Medinex sərgisində iştirak mənim üçün yeni üfüqlər açacaq və gələcək layihələr üçün ilham verəcək.

**Adel Mişel El Hallal**
Beynəlxalq biznes inkişafı üzrə menecer, Bellavie S.R.L. (Belçika)



İstənilən inkişaf daim modernləşmə və texnoloji yeniliklərlə bağlıdır. Medinex isə bu sahədə müasir tərəqqini uğurla əks etdirir. Biz trendlərdən geri qalmamalı, inkişaf etmiş ölkələrlə ayaqlaşmalıyıq. Buna görə də sərgimizin daha çox ziyarətçi, daha zəngin proqram, daha çox iştirakçı və stendlərlə daha geniş miqyasda keçirilməsini arzulamaq tamamilə təbiidir.

**Əli Quliyev**
Anestezioloq-həkim, Ağciyərdənkənar Vərəm Xəstəxanası



Bakıda tibbi sərginin keçirilməsinin bir çox üstünlükləri var. Bu, mühüm əlaqələrin və partnyorluqların qurulduğu, istehsalçılar və təchizatçılarla birbaşa tanışlıq imkanı yaradan, məhsula yaxından baxıb mütəxəssis tövsiyələrini yerindəcə almağa şərait yaradan çox faydalı platformadır. Medinex bir daha biliklərimi genişləndirdi və məni axtardığım kommersiya məhsulu ilə tanış etdi.

**Emiliya Nəsibova**
Podoloq–estetist



Azərbaycanın tibbi bazarı sürətlə inkişaf edir və Medinex 2025 bu inkişaf üçün yeni impuls yaradır. Sərgi ölçü baxımından böyük olmasa da, o, müxtəlif tibbi istiqamətləri əhatə edir və əməkdaşlıqda maraqlı olan bütün tərəflər arasında dialoqun qurulmasına töhfə verir.

**Kamilla Umirova**
Mərkəzi Asiya ölkələri üzrə qeydiyyat şöbəsinin baş mütəxəssisi, Medstandard



Hesab edirəm ki, Medinex sərgisi Azərbaycan səhiyyəsi üçün mütləq vacibdir. Çünki səhiyyə ölkə əhalisinin tamamını əhatə edən, həm ən çətin, həm də ən vacib sahələrdən biridir. Buna görə də sərgidə təqdim olunan innovasiyalardan xəbərdar olmaq və onları ölkəmizdə tətbiq etmək çox önəmlidir.

**Camal Əliyev**
Kommersiya meneceri, CCI APAC (Sinqapur)

# SƏRGİNİN İŞGÜZAR PROQRAMI



## SƏRGİ ÇƏRÇİVƏSİNDƏKİ MÜXTƏLİF TƏDBİRLƏR:

- Panel sessiyaları və təqdimatlar
- Seminarlar və workshop-lar
- Qanvermə aksiyası
- Pulsuz mammoqrafiya müayinəsi



## *Panel və ekspert sessiyaları:*

- Hüceyrə və gen terapiyası
- İlkin Tibbi Yardım Təlimi
- Hemofiliyanın Multidisiplinar Müalicəsinə Dair Seminar
- Kalgari–Kembric modeli
- İrsi onkoloji sindromlar
- Müasir onkomammologiyada onkoplastik cərrahiyyə anlayışı
- Qazaxıstanda onko-turizm
- Uşaq kardiologiyasında genetika - elmdən praktikaya
- Endokrinologiya. Şəkərli və şəkərsiz diabet









# MÜKAFATLANDIRMA

Nominasiyalar çərçivəsində stend dizaynı, brendin təqdimatı, ziyarətçilər ilə ünsiyyət baxımından fərqlənən sərgi stendləri qiymətləndirilmişdir. Qalib stendlər sərgi çərçivəsində mükəmməllik meyarlarının formalaşmasına töhfə vermişdir.















# DƏSTƏK VƏ TƏRƏFDAŞLAR

medinex

## RƏSMİ DƏSTƏK

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

TƏBİB

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası

## TƏŞKİLATÇILAR

ceo caspian event organisers

caspian event management

icaevents

## QIZIL SPONSOR

ZEYTUN PHARMACEUTICALS

## RƏSMİ BANK

PASHA Bank

## REKLAM TƏRƏFDAŞI

bilbord.az

## RƏSMİ MEHMANXANALAR

Marriott Baku Boulevard

Sheraton Baku Intourist

ART Boutique Hotel

Hilton Baku

Radisson Baku

Courtyard by Marriott Baku

The Merchant Baku

Hilton Garden Inn Baku

ibis

## TİBB XİDMƏTLƏRİ ÜZRƏ TƏRƏFDAŞ

Referans Medical Group

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ

Greenwich Travel Club

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ

AZ EXPO MONTAGE

## RƏSMİ GÜL TƏRƏFDAŞLARI

Buketeria The Art of Flowers

GF Gloria Flowers

## İNFORMASİYA TƏRƏFDAŞLARI

AZ TV

AZƏRTAC

1news.az

## RƏSMİ RADİO TƏRƏFDAŞI

asan radio 100 FM

## İNFORMASİYA DƏSTƏYİ

BİZNES TV

BHB Strategic & Creative Co.

KOMPASS Your route to business worldwide

Park Bulvar Baku

Radio Enerji 101.1FM

## İNTERNET DƏSTƏYİ

abc.az

apa

Baku News www.baku.news

Business Time

faktor.az

lent.az

ona onlayn xəbər agentliyi

redaksiya

# Medinex

Azərbaycanda tibb və səhiyyə sahəsində ən mühüm kompleks tədbir olmaqla, istehsalçıların, distribyutorların və sahə üzrə peşəkarların görüş məkanıdır.

medinex

**29 | 30 | 31**
**OKTYABR 2026**
**BAKI EKSPO MƏRKƏZİ**
















## SƏRGİ BÖLMƏLƏRİ

- Tibb sahəsində informasiya texnologiyaları
- Tibbi avadanlıqlar
- Tibbi məhsullar
- Əczaçılıq məhsulları, vitaminlər və bioloji fəal qida əlavələri
- Ortopediya
- Stomatologiya, stomatoloji avadanlıqlar, alətlər və xidmətlər
- Optika və oftalmologiya
- Pediatriya və ixtisaslaşdırılmış pediatrik xidmətlər
- İnnovativ laboratoriya avadanlıqları və texnologiyaları
- Əczaçılıq avadanlıqları və “açar təslim” layihələr
- Tibb müəssisələri və apteklər üçün mebel
- Tibbi turizm
- Yaşlılara qulluq məhsulları
- Dietologiya
- Tibbi təhsil
- BeFit – sağlam həyat tərzi ərazisi
- Tibbi mebel
- Estetik tibb

**OFFICIAL SUPPORT**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

www.medinex.az

# MedinexAzerbaijan

medinex

# 29 | 30 | 31 OKTYABR 2026

**BAKI EKSPO MƏRKƏZİ**

www.medinex.az



28-ci Azərbaycan Beynəlxalq

# TİBB İNNOVASİYALARI SƏRGİSİ

Təşkilatçılar

ceo caspian event organisers

caspian event management

icaevents

# MedinexAzerbaijan